DÖVLƏT VERGİ XİDMƏTİ

# Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi istiqamətində dəyişikliklər

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 01.01.2024-cü il tarixdən etibarən**

- Vergi ödəyicisinin hesabat ilinin mənfəətinin Nazirlər Kabineti tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, habelə siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olan hissəsi **10 faizdən 15 faizə** qaldırılmışdır.

  - Dəyişikliyin məqsədi – müəssisələrin sosial-korporativ məsuliyyətindən irəli gələn maliyyə dəstək proqramının daha effektiv həyata keçirilməsidir.

**Dövlət büdcəsinə ödənilməli olan vergilər barədə ətraflı məlumatla www.taxes.gov.az internet saytında tanış ola bilərsiniz.**

BAKI — 2024

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- Yük avtomobillərinin təmiri ilə bağlı çəkilən xərclərlə bağlı təmir xərci normaları qalıq dəyərinin **5 faizindən 8 faizinə** qaldırılmışdır.
- İcarəçinin balansında uçota alınmayan əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə verən tərəfindən əvəzi ödənilməyən xərclər bağlanmış icarə müqaviləsinin müddəti ərzində, lakin **5 ildən az olmayaraq** illər üzrə mütənasib məbləğlərdə amortizasiya olunmaqla gəlirdən çıxılacaq.
- Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, respublikanın digər şəhər və rayonlarında mehmanxana (hotel) və sanatoriya fəaliyyətində istifadə edilən daşınmaz əmlaklara görə əmlak vergisi **3 il** müddətinə **75 faiz** azaldılmışdır.
    - Regional turizmin gəlirləri əsas etibarilə mövsümi fəaliyyət üzrə formalaşır və qeyri-mövsüm vaxtı bu sektor üzrə gəlirlərin səviyyəsi kəskin azalmış olur. Yerləşmə vasitələrinin aktivlərinin dəyəri kifayət qədər böyük həcmdə olur, bununla belə, əmlak vergisi sabit vergi xərci olmaqla mövsümi fəaliyyət göstərən biznes üzərində əhəmiyyətli vergi yükü yaratmış olur.

Qeyd olunanlar nəzərə alınaraq, regional turizmin inkişaf etdirilməsi, turizm subyektlərinin sabit vergi xərclərinin azaldılması və həmin subyektlərə vergi təşviqlərinin verilməsi məqsədilə yuxarıda qeyd olunmuş dəyişiklik edilmişdir.